**Aşıq olub söz qoşanlar, söz desin sözüm kimi,**
**Miskin Abdal, məkrur istə hamını özün kimi.**
**Arifi, mətləb qananı bilirəm özüm kimi,**
**Sinəm üstən mərd yeridi, nadana yol verməmdim.**

# Göyçəli Miskin Abdal - 500 illik tariximizdə məşhur Qərbi azərbaycanlı...



"Mən Qərbi azərbaycanlıyam" rubrikasının bu sayında Səfəvilərin böyük ideoloqu, görkəmli dövlət xadimi, diplomat, Şah İsmayıl Xətainin mürşidi, "Ricalül-Qeyb" ("Qeyb Ərəni"), böyük Övliya, Sufi şeyxi, sərkərdə, sufi-şair, ozandan aşığa (Haqq aşiqliyinə), qopuzdan saza keçidin banisi, çoxsaylı aşıq havalarının müəllifi, Ocaq-Pir sahibi Miskin Abdaldan danışacağıq. Miskin Abdalın adı, şöhrəti əsrlərdir ki, türk ellərində anılır, duyulur.

Görkəmli folklorçu alim, professor mərhum Qara Namazov yazılarından birində Miskin Abdal barədə diqqət çəkən məqamlara toxunub. Professor Namazov yazırdı ki, adı sənətsevərlər arasında əfsanələşən, haqqında bir-birinə bənzəyən və bənzəməyən, bir-birini təsdiq və inkar edən saysız-hesabsız rəvayətlər bu qədim ustadın həyat yolunun öyrənilməsini mürəkkəbləşdirib. "Ulu Göyçənin söz bilənlərinin yaddaşında Miskin Abdalın həyatına dair bəzi məqamlar qorunub yaşanıb. Onun əsl adı Hüseyn, atasının adı Məhəmmədcəfər olub. Ustadların söyləmələrinə görə, Hüseyn XV yüzilin ortalarında Göyçənin Sarıyaqub kəndində doğulub, yüz ildən artıq ömür sürüb.

Göyçənin özünəməxsus ozan-aşıq mühiti Hüseynin də qəlbinə yol tapıb, onu sazınsözün vurğunu edib. Hüseyn ərsəyə çatdıqca həyat yolu onu get-gedə çətin imtahanlardan keçirib, quzeydə Dağıstan, güneydə Azərbaycan, İran, Osmanlı, Şam və başqa islam məmləkətlərinə səfərləri qarşısında yeni üfüqlər, yeni fəzalar açır. Bu o zaman idi ki, Ağqoyunlu, Qaraqoyunlu dövlətlərinin arasında ixtilaflar dərinləşir. Səfəvi xanədanı bu fürsətdən istifadə edib öz hakimiyyətini tədricən bərqərar edir. Gənc İsmayıl bu məqamlardan istifadə edib ətraf ölkələrə yürüşlər edir. Bu yürüşlər zamanı yolu Göyçədən düşən gənc şahzadə bir neçə gün Göyçədə dayanıb bu yurdun mötəbər adamları ilə görüşür, aşıqlarına qulaq asır. Onların arasında Hüseyn şahın diqqətini daha çox cəlb edir, öyrənir ki, sınaqlardan çıxmış və Qafqazda geniş yayılmış Miskinlilər tayfasından Məhəmmədcəfərin oğludur və Göyçədə böyük nüfuz sahibidir. Məclisdə Hüseynin sinədən söylədiyi hikmətli sözlər də şahzadənin çox xoşuna gəlir. Şah: "Ey mömin insanlar, Miskin Abdal mötəbər şəxsdir, ona inanın, mətləbiniz varsa ondan diləyin" - deyib Göyçəni də Miskinə tapşırır. Şah İsmayıl özünün bir sıra siyasi missiyasını Miskin Abdal vasitəsilə həyata keçirir. Elə ömrünün çox hissəsini səfərlərdə keçirdiyi üçün də Hüseyn Miskin Abdal kimi məşhurlaşır. Yalnız şah dünyasını dəyişdikdən sonra Miskin Abdal uzun illər Sarıyaqubda yaşamalı olur. Onun ölümü də rəvayətlər içərisində dolaşmaqdadır. Deyilənlərə görə, bir neçə il Dağıstanda yaşayıb geri dönərkən yolda qadını və oğlu borana düşüb ölürlər.

Miskin Abdal Şah İsmayılın hakimiyyəti illərində onun bir sıra tapşırıqlarını yerinə yetirməklə bərabər, Göyçənin də adını, nüfuzunu qoruyub, ona hörmət və şöhrət gətirib. Bütün bunlarla yanaşı, Miskin Abdal bizə ozan-aşıq-saz şairi kimi gəlib çatıb. Onun Göyçə aşıqlarından əldə edilən şeirləri göstərir ki, Miskin Abdal irsini XVI yüzilin əvvəllərində Göyçə aşıq məktəbinin təkamül yolunda yeni bir mərhələ adlandırmaq olar. Miskin Abdaldan öncə hələlik iki ozan aşığının adı xatırlansa da (Ozan Heydər və şəyirdi İbrahim), aşıq sənəti haqqında etibarlı məlumat çox azdır.

Miskin Abdalın bizə gəlib çatan şeirləri də göstərir ki, o, ərəb və fars dillərinə, islam bilgilərinə, şəriət və təriqət qanunlarına dərindən bələd olan çox mötəbər şəxsiyyət olub. Yazılanlardan bu nəticəyə gəlmək olur ki, Azərbaycanın bir sıra bölgələrində məskunlaşan miskinlilər Miskin Abdal soyundandırlar"- deyə professor yazırdı.

Tədqiqatçılarının yazdığına görə, Miskin Abdal adı ilə tarixə düşən Seyid Hüseyn Məhəmməd oğlu 1430-cu ildə Göyçə mahalının Sarıyaqub (Zərgərli) kəndində anadan olub. Hüseynin mənsub olduğu "Zərgərli" tayfası o dövrün tanınmış tayfalarından biri idi. Hüseynin ulu babası Yaqubla Şeyx Səfi arasında qırılmaz dostluq əlaqələri olmuş, bu mənəvi yaxınlıq sonralar hər iki nəslin törəmələri arasında davam etmişdir. Hüseynin babası Cəfər, atası Məhəmməd Ərdəbil şeyxlərinin ən sınanmış müridləri kimi Göyçədə sufiliyin təriqət ideyalarının yaranmasına hamilik etmişdilər. Tədqiqatçılar yazırlar ki, belə bir mühitdə böyüyən Hüseyn müqəddəs nəslin tarixi və mənəvi-dini missiyasını ləyaqətlə daşıyır. Qeyd edilənə görə, Miskin Abdal adı ilə aşıq-sufi ədəbiyyatının binasını qoyur, Zərgərli şəcərəsinin Mövlana Miskin Abdalı - ruhun memarı kimi tanınıb şöhrət tapır. Təriqət ideologiyası ilə ədəbiyyata, aşıq sənətinə büllurluq, müqəddəslik gətirir. "Əksər Haqq Aşiqləri kimi Miskin Abdala da yuxusunda Təbriz şəhərindən olan Sənubər adlı qıza buta verilmiş, Təbrizə gedib, butasına qovuşmuş, onunla evlənmişdir. Bir müddət sonra bədbəxt hadisə nəticəsində Sənubər vəfat etmiş, bundan sonra o uzun müddət evlənməmiş, yalnız 50 yaşından sonra İrəvandan tacir qızı Həlimə ilə evlənmiş, bu nigahdan onların 4 övladı - Şadman, Əli və Həsən adlı oğulları, Məleykə adlı qızı olmuşdur. Əli və Həsən adlı oğulları Dağıstan dağlarında baş vermiş faciədə həlak olmuşlar. Bir əsrlik ömrü saraylarda, səfərlərdə, həyatın ağrılı-acılı yollarında keçən Miskin Abdal əsrlərdən keçə-keçə rəvayətlərə, əsatirlərə büründü. Miskin Abdalın həyat və fəaliyyəti ilə bağlı sağlığında və ya vəfatından sonra aşıqlar tərəfindən "Miskin Abdal və Sənubər" və "Miskin Abdal və Şah İsmayıl" dastanları yaradılmışdır. Həmçinin, Miskin Abdalın özü tərəfindən Şeyx Heydər övladlarının acı taleyinə həsr olunmuş "Aslan şah və İbrahim" dastanı və "Yetim Hüseyn" dastanı yaradılmışdır. "Miskin Abdal və Sənubər" dastanı şairin ömür yolundan bəhs edən məhəbbət dastanıdır. Dastanın ruhundan aydın duyulur ki, Miskin Abdal dünyasını dəyişəndən sonra bu dastan onun xalq arasında dolaşan şeirləri əsasında yaranmışdır. "Şah İsmayıl və Miskin Abdal" dastanı isə öz ideya-bədii xüsusiyyətlərinə görə məhəbbət və qəhrəmanlıq dastanlarından fərqlənir. Bu dastanın süjetində real tarixi hadisələr dayanır. "Aslan şah və İbrahim", eləcə də "Yetim Hüseyn" dastanları isə Göyçənin saz-söz ustadlarının söylədiklərinə görə Miskin Abdal tərəfindən yaradılmışdır. Miskin Abdal öz dövründə "Abdal" ilə yanaşı "Pir", "Ata", Şeyx" kimi sufi titullarını da daşımışdır". Bu barədə Miskin Abdal haqda olan vikipediya məqaləsində deyilir. Məlumatlara görə, 1524-cü ilə qədər Təbrizdə sarayda müxtəlif yüksək dövlət vəzifələrində çalışmış Miskin Abdal Şah İsmayılın vaxtsız vəfatı ilə əlaqədar bərk sarsılır və saraydan birdəfəlik üz döndərib, doğma Göyçəsinə qayıdır, orada ilk məktəb açıb, maarifçilik işləri ilə məşğul olur. Onun Zərgərlidə (Sarıyaqubda) açdığı ilk məktəb Göyçənin elm, irfan, sənət dünyasında mühüm rol oynayır. 1535-ci ildə Göyçə mahalının Sarıyaqub kəndində 105 yaşında vəfat edir və doğma kəndində dəfn olunur. Onun yaşadığı ev, uyuduğu məzar müqəddəs ocaq kimi uzun əsrlər ziyarət edilir. Onun şəcərəsini yeganə oğlu Şadmanın ("ŞADMANLI" tayfası) və qızı Məleykənin ("OCAQLI" tayfası) nəslinin nümayəndələri davam etdirir. Miskin Abdalın yeganə oğlu Şadmanın nəslinin tanınmış nümayəndəsi Göyçə mahalının Basarkeçər rayonunun Sarıyaqub kəndindən olan pedaqoq, jurnalist, şair, publisist, folklorşünas-tədqiqatçı alim Tofiq Hüseynzadədir (1946-2006). Tofiq Hüseynzadə ulu babası Miskin Abdal haqqında 2005-ci ildə "Səfəvilərin böyük övliyası - Miskin Abdal" kitabını nəşr etdirmişdir. 13.11.2006-cı ildə onun vəfatından sonra, 2017-ci ildə "Aşıq deyişmələrinin poetikası" dissertasiya işi monoqrafiya qismində nəşr olunmuşdur. 2018-ci ildə T.Hüseynzadənin "Xəyal cığırı" adlı 3 cildlik kitabı nəşr olunmuşdur. Bu kitaba onun 750-dən çox şeiri, hekayələri, hikmətli kəlamları, habelə, Sufizmin ən yüksək pillə və məqamlarını simvolizə edən "Miskin" və "Abdal" sufi-təsəvvüf anlayışlarının ədəbiyyatımızda ilk dəfə elmi əsaslandırılmış izahına həsr edilmiş, doktorluq dissertasiyası səviyyəsində yazdığı "Miskin Abdal - Qeyb Ərəni, Təsəvvüf Piri" elmi-tədqiqat əsəri daxil edilmişdir. Həmin əsər 2018-ci ildə ayrıca kitab şəklində yenidən nəşr olunmuşdur. Tofiq Hüseynzadənin oğlu Avropa Uroloqlar Assosasiyasının üzvü, tanınmış uroloq, tibb elmləri doktoru, Azərbaycan Tibb Universitetinin Urologiya kafedrasının müəllimi, dosent Rafiq Hüseynzadədir. Gədəbəydə "Miskin Abdal" ədəbi məclisi yaradılmışdır.

Dərviş gərək bu meydanda qurban olsun baş-başa,
Mürşüdündən üzü dönməz, dünya gəlsə baş-başa,
Ayıq olan uzaq olsun, yetsin gərək baş-başa,
Fələk nə vaxt sökər üzüm, narın üzə bilmərəm.

Qeyd edilir ki, Tarixdə "Miskin Abdal" kimi məşhurlaşan, əsl adı Seyid Hüseyn Məhəmməd oğlu olan bu görkəmli şəxsiyyəti atası Məhəmməd Cəfər oğlu onu uşaq yaşlarından Göyçəli Ozan Heydərin tələbəsi olmuş Ozan İbrahimin yanına şəyird kimi qoymuş, gənc Hüseyn ustadından qopuz çalmağı və ozan sənətinin sirrlərini öyrənmiş, gənc yaşlarından Göyçə və ətraf bölgələrdə böyük ad-san qazanmışdır.

Hüseynin ulu babası, XIII əsrdə yaşamış Yaqub ilə Şah İsmayılın ulu babası Səfiəddin arasında sarsılmaz dostluq, silahdaşlıq olmuş, Yaqub və onun nəsil davamçıları Səfiəddin tərəfindən əsası qoyulmuş sufi cərəyanı olan "Səfəviyyə" təriqətinin Göyçə və ətraf bölgələrdə yayılması ilə məşğul olmuş, bu cərəyanın tanınmış nümayəndələri olmuşlar. Bu məqsədlə Göyçədə Hüseynin babaları tərəfindən fəlsəfi məktəb sayılan sufi (dərviş) camiəsi - icması olan "Təkyə" yaradılmış, burada çoxsaylı sufi müridləri, tələbələri yetişmiş və ətraf bölgələrə missioner olaraq göndərilmişlər. Miskin Abdal bir neçə şeirində "Seyid", həmçinin "Ocaqzadə" (yəni, İmam Əlinin oğlu Hüseynin nəslindən) olduğunu vurğulayır: "Seyid Miskin Abdal mənəm, söz mənim, meydan mənim", yaxud "Ocaqzadə bir təb əhli nökərəm" və sair. O, həmçinin şeirlərində "Qırxlar Piri özü verib dərsimi ümman mənim", yaxud "Qırxlar Piri özü düzüb ayağıma atəşi" deyə, məhz sufi mürşidlərinin ocağı, təsəvvüf iyerarxiyasının ali Divanı - 40 müqəddəs Abdalın olduğu "Qırxlar piri"ndən (Qırx Abdal Pirindən) dərs aldığını göstərir.

Ey dost, sənin bağın cənnət, narın üzə bilmərəm,
Ha silkinsəm, dəryan dərin, narın üzə bilmərəm.
Qırxlar piri özü süzüb ayağına atəşi,
Alışıram Səməndərtək, narın üzə bilmərəm.

***İradə SARIYEVA***